AZƏRBAYCAN RESPUBLİKASININ
AUDİTORLAR PALATASI ŞURASININ
QƏRARI

Bakı şəhəri **№329/1** **02 aprel 2021-ci il**

Sərbəst auditorlar və auditor təşkilatları tərəfindən 2020-ci il üzrə auditor xidməti göstərilməsinə dair hesabat barədə

Azərbaycan Respublikası Auditorlar Palatasının 2021-ci il üzrə iş planının 1.8-ci "Sərbəst auditorların və auditor təşkilatlarının 2020-ci il üzrə hesabatlarının toplanması, təhlili və icmal-tövsiyələrin hazırlanması" bəndinin icrasını təmin etmək məqsədilə Palatanın Auditin təşkili, hesabatlılıq və informasiya idarəsi (V.Cavadov) tərəfindən hazırlanmış hesabatı müzakirə edərək Auditorlar Palatasının Şurası

QƏRARA ALIR:

1. "Sərbəst auditorlar və auditor təşkilatları tərəfindən 2020-ci il üzrə auditor xidməti göstərilməsinə dair hesabat" nəzərə alınsın (əlavə olunur).

2. Pandemiya şəraitində meydana gələn çətinliklərlə əlaqədar iqtisadiyyatın digər sahələrində olduğu kimi, auditor xidməti göstərilməsində də baş vermiş müəyyən azalma halları müşahidə olunsa da bir auditor müqaviləsinin orta məbləğinin 11,4 min manatdan 13,1 min manata qədər və ya 14,9% artması müsbət hal kimi vurğulansın.

3. Auditin təşkili, hesabatlılıq və informasiya idarəsinə (V.Cavadov, N.İsmayılova), Auditin innovativ inkişafı və operativ tənzimləmə idarəsinə (Q.Əhmədov) tapşırılsın ki, bir ay müddətində 2019-cu il ilə müqayisədə 2020-ci il üzrə göstərilmiş auditor xidməti həcminə və ya orta müqavilə məbləğinə görə ən çox geriliyə yol vermiş Auditorlar Palatası üzvlərinin, o cümlədən:

Auditor təşkilatları üzrə:

- "Fchain Audit" MMC (direktor - Valid Hüseynov)
  xidmətin həcminə görə: 74,1 %
- "Finexpert" MMC (direktor - Həcət Cəbrayılov)
  xidmətin həcminə görə: 98,8 %
  orta məbləğə görə: 84,6 %
- "İmdad Audit" MMC (direktor - İlham Süleyman)
  xidmətin həcminə görə: 78,7 %
  orta məbləğə görə: 74,5 %
- "OSHAR" MMC (direktor - Rahim Manafov)
  xidmətin həcminə görə: 94,0 %
- "TİD KONSULTİNQ" QSC (direktor - Fidan Rzayeva)
  xidmətin həcminə görə: 75,1 %

Sərbəst auditorlar üzrə:

- Eminov Otello Zəkəriyyə oğlu
  xidmətin həcminə görə: 77,3 %

azalma səbəbləri araşdırılsın və bu barədə rəhbərliyə məlumat təqdim edilsin.

4. Auditorlar Palatasının icraçı direktoruna (S.Gülməmmədov), Auditin təşkili, hesabatlılıq və informasiya idarəsinə (V.Cavadov) tapşırılsın ki, 2020-ci il üzrə məcburi auditdən keçmə səviyyəsinin aşağı olduğu audit subyektləri, o cümlədən bələdiyyələr (19,0%) və siyasi partiyalar (21,8%) barədə müvafiq qurumlara məlumatın hazırlanıb göndərilməsi təmin edilsin.

5. Aşağıda adları qeyd olunan auditor təşkilatları və sərbəst auditorların şəxsi kabinetdə hesabatlarının yığılmaması və təsdiq edilməməsi onların nəzərlərinə çatdırılsın və həmin üzvlərə tapşırılsın ki, bir ay müddətində şəxsi kabinetdən istifadə edərək müqavilələrin qeydiyyatının aparılmasını təmin etsinlər:

Auditor təşkilatları üzrə:

- “AZAUDİT” MMC (direktor – Afiq İsrəfilov);
- “Baker Tilly Audit Azərbaycan” QSC (idarəedici partnyor - Ziya İbrahimov);
- “Audit Planning and Strategy” MMC (direktor – Ülfət Məmmədov);
- “Cavid - Audit” MMC (direktor – Şahbaz Məmmədov);
- “Premium Audit” MMC (direktor – Nicat Kərimov);
- “M ənd J Accuracy Consulting” MMC (direktor – Elçin Cəfərov);
- “Grant Thornton” MMC-nin Azərbaycan Respublikasındakı filial (direktor – Farouk Mohamed)
- “Bakı Audit Konsaltinq” MMC(direktor – Məmmədəli Orucov);
- “Audit Grup” MMC (direktor – Natiq Məmmədov);
- “Avizo Audit” MMC (direktor – Nazim Salmanov);
- “V.İ.P. Audit” MMC (direktor – Elçin Fərəcov);
- “HS Consulting” MMC (direktor – Azər Əsədov);
- “Deloitte &Touche” MMAC (direktor – Nuran Kərimov);
- “KPMC Audit Azərbaycan” MMC (direktor – Murat Karakaş);
- “PRAYSVOTERHAUSKUPERS Audit Azərbaycan” MMC (direktor – Fəxri Mustafayev);
- “Ernst & Yanq Holdinqs (SiAyEs) Bi.Vi.” şirkətinin Azərbaycan Respublikasındakı filialı (idarəedici partnyor – İlqar Vəliyev);

Sərbəst auditorlar üzrə:

- Abbasov Yaşar Çingiz oğlu;
- Mikayılzadə Raqif Rami oğlu;
- Pənahov Novruz İsmayıl oğlu;
- Sadıqov Musa Sərxan oğlu;
- Paşayev Əmrah Mürvət oğlu;
- Eminov Otello Zəkəriyyə oğlu;
- Gülməmmədov Şirxan Yadigar oğlu;
- Rzayev Akif Məlik oğlu;
- Cəfərov Bayram Sadiq oğlu;
- Quliyev Elçin Vaqif oğlu;
- Əliyev İbiş Müseyib oğlu.

Bu bəndin icrasına məsul şəxs Auditin təşkili, hesabatlılıq və informasiya idarəsinin rəisi V.Cavadov müəyyən edilsin.

6. Auditorlar Palatası Şurasının 2018-ci il 12 iyun tarixli 301/1 nömrəli qərarı ilə təsdiq edilmiş “Auditor təşkilatlarının və sərbəst auditorların fəaliyyətini əks etdirən yarımillik (illik) hesabat forması və hesabatın tərtib edilməsinə dair Təlimat”ın tələblərinə əsasən 2020-ci ilin yekunu üzrə “AZAUDİT” MMC (direktor-auditor – İsrəfilov Afiq Tofiq oğlu) və “Grant Thornton” MMC-nin Azərbaycan Respubliksındakı filialı (direktor – Farouk Mohamed) tərəfindən Auditorlar Palatasına 2020-ci il üzrə fəaliyyətlərini əks etdirən hesabatın vaxtında təqdim edilmədiyi nəzərlərinə çatdırılsın və onlara son xəbərdarlıq elan edilsin. Eyni zamanda adları qeyd edilən auditor təşkilatlarının rəhbərlərinin nəzərlərinə çatdırılsın ki, belə hal gələcəkdə təkrar olunduqda icazənin geri alınması məsələsinə Palata Şurasında baxılacaqdır.

7. Auditin təşkili, hesabatlılıq və informasiya idarəsinə (V.Cavadov) tapşırılsın ki:

7.1. Nəzərdə tutulmuş müddətdə hesabatları təqdim etməyən auditor təşkilatları və sərbəst auditorlar barədə müvafiq tədbirlər görülməsi məqsədi ilə məlumatlar hər il fevral ayının 10-dək təqdim edilsin;

7.2. Məcburi auditdən yayınan təsərrüfat subyektləri barədə ətraflı informasiyanın əldə olunması, həmin subyektlərə Auditorlar Palatası və aidiyyəti qurumlar tərəfindən müvafiq bildirişlərin göndərilməsi nəzərdə tutulan müddətdə təmin edilsin.

8. Auditor təşkilatlarının rəhbərlərinə və sərbəst auditorlara tapşırılsın ki, sifarişçilərə yüksək keyfiyyətli, Beynəlxalq Audit Standartlarının tələblərinə uyğun gələn auditor xidmətinin göstərilməsini, öz fəaliyyətlərində şəffaflığın yüksəldilməsini, qabaqcıl texnologiya və innovasiyalardan istifadənin genişləndirilməsini, haqsız rəqabət və dempinq hallarına yol verilməməsini, auditə ictimai etimadın artırılmasını təmin etsinlər.

9. Bu qərarın mətni Palatanın internet səhifəsində yerləşdirilsin.

Şuranın sədri **Vahid Novruzov**